

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

8 aprel 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 13 (3526)


# Azərbaycan qlobal səyləri səfərbər edən ilk ölkələrdəndir



Aprelin 6-da Ümumdünya Səhiyyə Təşkilatının İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil qərargahında təşkilatın Baş direktoru Tedros Adhanom Qebreyesusun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin videomüraciəti təqdim olunub. Qeyd edək ki, tədbirdə 4 ölkənin dövlət və hökumət başçısının videomüraciəti yayımlanıb.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus pandemiya ilə bağlı təcrübə və pandemiyanın kəskin fazasının mümkün qədər tez bitməsi üçün görüləməli olan vacib tədbirlər barədə danışması üçün Prezident İlham Əliyevə söz verib.

Prezident İlham Əliyev videomüraciətində bildirib ki, 1950-ci ildən etibarən hər il aprelin 7-də Ümumdünya Sağlamlıq Günü qeyd edilir. Lakin 2021-ci ildə sağlamlığın əhəmiyyəti daha da artmışdır. Müasir, davamlı, yüksəkkeyfiyyətli səhiyyə sisteminə sahib olmaq hər bir ölkə üçün prioritetdir.

Hazırda Azərbaycanın səhiyyə sistemində əhəmiyyətli dəyişikliklərin baş verdiyini diqqətə çatdıran dövlətimizin başçısı, ölkəmizdə icbari tibbi sığorta tətbiq edilməklə ilkin tibbi yardımın gücləndirildiyini, təcili tibbi yardım xidmətlərinin yeniləndiyini, elektron səhiyyə platforması və dövlət səhiyyə hesablarının istifadəyə verilməsilə rəqəmsallaşmanın təmin edildiyini vurğulayıb.

COVID-19 pandemiyasının bütün dünyada səhiyyə sistemlərinə böyük təzyiq göstərməyə davam etdiyini bildirən Prezident İlham Əliyev ölkəmizin qlobal mübarizəyə fəal dəstək verdiyini xatırladıb.

"Azərbaycan COVID-19 pandemiyasına qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Bizim təşəbbüsümüzlə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Biz, həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərmişik.

Builki Ümumdünya Sağlamlıq Günü "Daha ədalətli və daha sağlam dünyanın qurulması" mövzusuna həsr olunub. Bu mənada peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bununla belə, peyvəndlərin inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında qeyri-bərabər və ədalətsiz paylanması bizi dərindən narahat edir. Bəzi ölkələr ehtiyacı olduğundan dəfələrlə çox peyvənd tədarük edir. Aydındır ki, belə şəraitdə digər ölkələr peyvənd qıtlığı ilə üzləşəcək",-deyə dövlətimizin başçısı videomüraciətində qeyd edib.

Azərbaycanın peyvəndlərin paylanmasında ədalətliliyi dəstəklədiyini bildirən Prezident İlham Əliyev xatırladıb ki, ölkəmiz BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə layihəsi irəli sürüb. Qətnamə bu il martın 23-də konsensus əsasında qəbul edilib.

Dünya ictimaiyyətinin nəzərinə çatdırılıb ki, Azərbaycan, həmçinin COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biridir. Bütün beynəlxalq ictimaiyyət və biz bu təşəbbüsün pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəylik modeli olmağını gözləyirik.

Dövlətimizin başçısına təşəkkürünü bildirən Tedros Adhanom Qebreyesus deyib ki, peyvəndlərə bərabərhüquqlu, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin olunması ilə bağlı onun BMT-nin İnsan Hüquqları Şurasında göstərdiyi liderliyi alqışlayır və peyvəndlərin ədalətli şəkildə paylanılması üçün daha çox işlərin görülməli olması fikriylə razıdır.

# Türkdilli dövlətlər bir araya gəldi

Bugünlərdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşü keçirilib.

Görüşdə Qazaxıstan Prezidenti iqtisadi əlaqələrin əhəmiyyətinə toxunaraq Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsinin böyük İpək Yolunun çiçəklənməsi üçün yeni imkanlara yol açdığını, Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən istifadə etməklə Xəzər dənizinin rolunun artırdığını bildirib.

Prezident İlham Əliyev çıxışında II Qarabağ döyüşlərində ordumuzun əldə etdiyi şanlı qələbədən, Ermənistanın təxribatlarından, törətdikləri vəhşiliklərdən, tarixi abidələrimizi, şəhərlərimizi xarabalığa çevirməklərindən danışıb.

Yeni yaranan imkanlardan söz açan dövlət başçımız Zəngəzur dəhlizindən keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələrinin bütün türk dünyasını birləşdirəcəyini diqqətə çatdırıb. Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasıdan keçən dəmir yolunun isə Orta Asiya ilə Avropanı birləşdirəcəyini deyib.

Zirvə görüşündə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin əhəmiyyətini, pandemiyaya qarşı birgə mübarizənin vacibliyini vurğulayıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğızıstan Prezidenti Sadır Japarov, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Macarıstanın Baş naziri Viktor Orban da Zirvə görüşündə çıxış ediblər.

Diqqətə çatdırılıb ki, təşkilatın əsas məqsədi türk dünyasını ən vacib iqtisadi, mədəni məkanlardan birinə çevirməkdir.

## Strateji tərəfdaşlıq möhkəmlənir

Aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Telefon söhbəti zamanı Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyət müzakirə olunub. Vəziyyətin bütövlükdə sabit olmasından, atəşkəs rejiminə dönmədən riayət edilməsindən məmnunluq ifadə edilib.

Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçukun Bakıda apardığı danışıqlar nəzərə alınmaqla, Cənubi Qafqazda iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının nizamlanması üzrə Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistan baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlarına müvafiq olaraq aparılan işlərin gedişi nəzərdən keçirilib. Bu kontekstdə üç ölkənin Baş nazirləri müavinlərinin həmsədrliyi ilə işçi qrupunun fəaliyyəti müsbət qiymətləndirilib.

İkitərəfli gündəlikdəki bir sıra aktual məsələlərə, o cümlədən koronavirus pandemiyasına qarşı mübarizədə əməkdaşlıq məsələlərinə toxunulub. Hər iki tərəfin Azərbaycan-Rusiya strateji tərəfdaşlığının möhkəmləndirilməsini, qarşılıqlı faydalı layihələrin inkişafını davam etdirmək əzmi təsdiqlənib.

Əlaqələrin davam etdirilməsi barədə razılıq əldə edilib.

# Azərbaycan regionun aparıcı siyasi, iqtisadi və hərbi gücüdür

***İlham Əliyevin yeni inkişaf strategiyası respublikamızın Cənubi Qafqazın lideri kimi mövqeyini daha da möhkəmləndirəcək***

İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə Azərbaycan həm də bölgədəki statusunu bir qədər də möhkəmləndirdi. İndi qalib ölkə kimi Azərbaycan qaydaları özü müəyyənləşdirir, diktə edir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təkliflərini ortaya qoyur. Bütün görüş və çıxışlarında, müsahibələrində regionda yaranan qarşılıqlı faydalı əməkdaşlıq imkanlarından söz açan Prezident İlham Əliyev yeni reallıqların çoxşaxəli münasibətlərin daha dinamik inkişafına xidmət göstərdiyini bəyan edir.

Dövlət başçısı həmçinin, regionun gələcək inkişafını şərtləndirən layihələrin ilk növbədə bölgədə uzunmüddətli sülhün təminatçısı olacağını bildirir.

Qonşu dövlətlərin Azərbaycanla eyni mövqeyini bölüşməsi, həmfikir olması regionun gələcək inkişafı üçün nadir imkanların yarandığını bir daha təsdiqləyir.

Həyata keçirdiyi uğurlu diplomatiya ilə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev bu gün postmüharibə dövrünün reallıqlarını müəyyənləşdirir. Azad edilmiş torpaqlarımızda reallaşacaq mühüm infrastrukturlar, qlobal layihələr onu deməyə əsas verir ki, artıq Azərbaycanın və regionun inkişafında yeni dövr, yeni era başlayır.

Xarici investorların yeni layihələrə sərmayə yatırmaları iqtisadiyyatımızın daha da yüksəlişini təmin edəcək. Bütün bunlar isə Azərbaycanın Cənubi Qafqaz regionunda ən sabit, ən qüdrətli və lider ölkə statusunun, mövqeyinin daha da möhkəmlənməsini şərtləndirəcək.

*Azərbaycan Prezidenti İlham Əliyev aprelin 5-də Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.*

*Dövlətimizin rəhbəri aprelin 6-da Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin yaradılması haqqında fərman imzalayıb.*

# Polis ədalətin simvoludur

## Polisin fiziki güc tətbiqi qanunla tənzimlənir

Polis ictimai qaydanın, təhlükəsizliyin təmin olunmasında, cinayətlərin, eləcə də digər xətaların qarşısının alınmasında və açılmasında xidməti vəzifələrini yerinə yetirərkən bəzən sərt tədbirlər görmək, fiziki güc tətbiq etmək məcburiyyətində qalır. Bu o zaman baş verir ki, hər hansı şəxs və ya şəxslər onun qanuni tələblərinə tabe olmur, açıq-aydın itaətsizlik nümayiş etdirərək müqavimət göstərir, törətdiyi əmələ və ya əməllərə görə qanunun müəyyən etdiyi cəzadan boyun qaçırmağa çalışırlar. Belə halların aradan qaldırılması üçün asayiş keşikçiləri “Polis haqqında qanun”un 26-cı maddəsinə uyğun olaraq fiziki güc tətbiq etmək hüququna malikdirlər...




Polisə tabe olmamaq, müqavimət göstərmək və polisin məcburi fiziki güc tətbiq etmə kimi halları ilə günümüzdə də rastlaşırıq. Bu zaman asayiş keşikçilərini müdafiə edənlər də olur, qınayanlar da. Fəaliyyətimizi məhz vətəndaş məmnunluğu üzərində qurduğumuz üçün narazı olanların nəyə və niyə etiraz etdikləri ilə bağlı kiçik bir araşdırma apardıq.

Gəldiyimiz nəticə bəzi vətəndaşların qanunları zəif bilmələrini deməyə imkan verir. Təəssüflər olsun ki, “Polis fiziki güc tətbiq etdi” paylaşımı ilə sosial şəbəkələrdə populyarlıq qazanmaq, daha çox izləyici toplamaq istəyənlər də əksəriyyət təşkil edir.

İkinci qism adamlar isə şəxsi maraqları naminə yaranmış məqamdan sui-istifadə etməyə çalışanlardır. Onlar polisin işgüzar nüfuzunu, imicini zədələmək üçün kütlə psixologiyasını ram etməklə məşğuldurlar. Məqsəd sabitliyi pozmaq, günü-gündən inkişaf edən vətəndaş-polis münasibətlərinə xələl gətirmək, asayiş keşikçilərinə olan inam və etibarı sarsıtmaqdır...

Deməli, birinci qism insanlar da məsuliyyətsiz davranışları ilə düşmən dəyirmanına su tökür, cinayətkar və ya təqsirkar barəsində “haqlı, təqsirsiz” kimi fikir formalaşdırırlar. Bu isə qanunlara hörmətsizlik, eyni zamanda gənc nəslə pis örnəkdir.

Polis ədalətin simvoludur. Təkcə adının varlığı insanların rahat və hüzurlu olmasına kifayət edir. Çünki o, irqindən, milliyyətindən, mənşəyindən, dinindən, dilindən və siyasi baxışlarından asılı olmayaraq hər kəsin hüquqlarının müdafiəçisidir. Və ədalətin bərqərar olması üçün gərəkli olduqda fiziki güc tətbiq etmə imtiyazına da sahibdir.

*Teymur Əlizadə, polis mayoru*

# Təhlükə sovuşmayıb

## İşğaldan azad edilmiş ərazilərdə silah-sursat aşkarlanır

İşğaldan azad edilmiş ərazilərdə düşmənin atıb qaçdığı silah-sursatların aşkar edilməsi istiqamətində profilaktiki tədbirlər davam etdirilir.

Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş növbəti belə tədbirlər zamanı rayon ərazisindən “İqla-S”, “Muxa”, “Foqot” markalı raket kompleksləri, 3 pulemyot, avtomat, qumbaraatan, 33 növ əl qumbarası, 308 mərmi, 10 avtomat darağı və 3 min ədəd müxtəlif çaplı güllələr aşkar edilib.

Tədbirlər Qubadlı rayonunda da həyata keçirilib. Rayon Polis Şöbəsinin əməkdaşları düşmənin tərk etdiyi mövqelərdən 6 əl qumbarası, 261 qumbaraatan mərmisi, 77 ədəd müxtəlif alışdırıcılar, 31 ədəd digər partlayıcı vasitələr və 13.819 müxtəlif çaplı güllələr taparaq aidiyyəti üzrə təhvil veriblər.






# Profilaktik tədbirlər keçirilir





Hüquq pozuntularının profilaktikası, küçə ticarəti, avara və dilənçiliklə məşğul olma ilə yanaşı antisanitariya, avtomobil yollarında hərəkətin təhlükəsizliyi, xüsusilə müəyyən olunmayan yerlərdə – səkilərdə, piyada keçidlərində avtomobillərin saxlanılması və koronavirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə elan edilən xüsusi karantin rejim qaydalarının təmin olunması ilə bağlı paytaxtımızda fəal iş aparılır.

Bugünlərdə polis əməkdaşları tərəfindən keçirilən növbəti tədbirlərlə müxtəlif növ cinayət törətdiklərinə görə axtarışı elan olunan 26 nəfərin yeri müəyyənləşdirilərək qanuna təslim edilib. Küçə ticarəti ilə məşğul olduqlarına görə 118, avara və dilənçilik edən, tüfeyli həyat tərzi keçirən 53 nəfər saxlanılıb. Həmçinin xırda xuliqanlıq, xırda talama, antisanitariya və digər sosial-neqativ hallar aşkar olunaraq qabaqlayıcı tədbirlər görülüb. Koronavirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə elan edilən xüsusi karantin rejim qaydalarının pozulması üzrə 1483 fakt qeydə alınıb ki, onlardan 12 nəfəri müalicə təyin olunduğu ünvanı tərk edən aktiv infeksiya daşıyıcısı olub.

Bununla yanaşı, yol hərəkəti qaydalarını pozan ümumilikdə 3223, o cümlədən kobud qayda pozuntusuna yol verən 169 sürücü barəsində İnzibati Xətalar Məcəlləsinin (İXM) müvafiq maddələri ilə inzibati xəta haqqında protokollar tərtib olunub, çoxavazlı səs siqnalları, səs boğucular, sayrışan işıqlar və qanunla qadağan olunan digər əlavə avadanlıqlar quraşdırılan, eləcə də konstruksiyasında dəyişiklik edilən 116 nəqliyyat vasitəsi, avtomaşını sərxoş halda idarə edən 52 sürücü, 1 avtoxuliqan müəyyən olunub.

Tədbirlər davam etdirilir.

# Qürur duyur, təşəkkür edirlər...

Polisi gözdən salmaq, onun nüfuzuna zərbə vurmaq istəyənlərin niyyəti bəllidir. Əslində, ağa qara demək onların köhnə şakəridir. Amma elin gözü tərəzidir.



Sabitliyi, asayişi etibarlı qoruyub ona həvalə edilən vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışan, özü darda, çətində olsa belə köməyə tələsən həmkarlarımızın fəaliyyəti nə gözdən yayınır, nə də ki, diqqətdən kənar qalır. Elə DİN-ə ünvanlanan təşəkkür dolu məktublarda bu səmimi hisslər ürək açır, könül xoş edir.

Onlardan biri ilə sizləri tanış edirik.

Lənkəran rayonunun Gərmətük kənd sakini Şərafət Əsgərov: “Mənim 67 yaşım var. Pensiya kartımı dəyişdirmək üçün banka getmişdim. Xeyli adam növbəyə durmuşdu. Yaşlı bir qadın da daşın üstündə əyləşib öz növbəsini gözləyirdi. Bu vaxt bir polis maşını dayandı. Maşından düşən polis əməkdaşı ona yaxınlaşıb nəsə soruşdu. Sonra o, növbə gözləyənlərlə salamlaşdı. Orada duranlardan xahiş etdi ki, yaşlı qadının növbədənkənar içəri keçməsinə icazə versinlər. Razılıq aldıqdan sonra o, yaşlı qadının əlindən tutub içəri gətirdi. Həmin qadının işi həll olunduqdan sonra onu bir taksiyə əyləşdirib gedəcəyi ünvana yola saldı.

Polis əməkdaşının bu xoş münasibəti hamımızda qürur hissi oyatdı. Orada olan hər kəs ona öz minnətdarlığını bildirdi. Mən asayiş keşikçisinə yaxınlaşıb gördüyüm mənzərəyə görə təşəkkür etdikdən sonra adını soruşdum. O isə: “Dövlətimizi, vətəndaşlarımızı qorumaq, onlara dəstək olmaq, hər kəsə lazımi köməkliyi etmək bizim borcumuzdur”, - deyib xidməti avtomobilə əyləşdi.

Həmin gündən bəri o səhnə gözümün qarşısında canlanır. Çox xoşbəxtik ki, Azərbaycan kimi dövlətin vətəndaşlarıyıq və bizi qoruyan, hörmət edən belə oğullarımız var. Mən öz adımdan və ailəm adından əmin-amanlığın, sabitliyin keşiyində duran Azərbaycan Polisinə bu çətin və şərəfli peşəsində uğurlar arzulayır, dərin minnətdarlığımı bildirirəm”.

*Ruhiyyə Əliyeva, polis baş leytenantı*

# Polisin adından istifadə edirdi

Lənkəran rayonunun Göyşaban kənd sakini Elsevər Cəfərzadə idarə etdiyi “Mercedes” markalı avtomobillə rayon ərazisində saxlanılaraq Lənkəran ŞRPŞ-yə gətirilib. Onun əynində arxa hissəsinə iri hərflərlə “polis” sözü yazılmış gödəkcə, sifətində üzərində “polis” sözü yazılmış qoruyucu maska, kəmərində antenalı radiostansiyanı xatırladan mobil telefon aşkarlanıb. İdarə etdiyi avtomobildən isə polis əməkdaşının fərqlənmə nişanı olan şevronlar, polis baş serjantı poqonları, bir ədəd qara qoburun içində oyuncaq tapança və qara rəngli maska aşkar edilib. Faktla bağlı araşdırma aparılır.




*Məhəmməd Rzayev, polis baş leytenantı*

# Səbirli, dözümlü və sayıqdırlar

## Polis baş serjantı Şahbaz Orucov: "Post-Patrul Xidmətinin əməkdaşları inamı və etimadı doğrultmağa çalışırlar"

**Post-Patrul Xidmətini polisin güzgüsü adlandıranlar öz bənzətmələrində yanılmırlar. Adətən, vətəndaş bu xidmətin əməkdaşının davranışını, hətta xarici görünüşünü müşahidə edib, bütövlükdə, polisə qiymət verməyə meyilli olur.**

Buna görə də bayır xidmətinin hər bir əməkdaşının hərəkətlərinin, əslində, ictimai rəyə ciddi təsir göstərdiyini deyə bilərik. Tez-tez vətəndaşlar tərəfindən sosial şəbəkələrdə kiməsə yardım edən, qayğı göstərən asayiş keşikçilərinin foto və videolarının yayılması da, polis əməkdaşına yüksək ictimai diqqətin bir göstəricisidir.

Bu diqqət qanun keşikçisinə cəmiyyətin baxışının inikasıdır və çox güman, “güzgü bənzətməsi” də buradan meydana çıxıb.

Sabunçu RPİ PPXB-nin manqa komandiri, polis baş serjantı Şahbaz Orucov 24 illik stajının böyük əksəriyyətini Post-Patrul Xidmətində keçirən təcrübəli əməkdaş kimi deyir ki, vətəndaşlar onlara ünvan soruşmaqdan tutmuş, polis orqanlarına müraciət etməyin qaydalarına qədər müxtəlif məzmunlu suallarla müraciət edirlər. Onlar isə bu suallara düzgün, dolğun cavab verməyə çalışırlar.



Əsas odur, vətəndaşlar məmnun qalsınlar və əmin olsunlar ki, onları qoruyan polis peşəkardır, hazırlıqlıdır.

Post-Patrul Xidmətinin əməkdaşlarının gündəlik karantin qaydalarına nəzarət tədbirlərini həyata keçirdiyini deyən manqa komandirinin sözlərinə görə, vətəndaşların böyük əksəriyyəti xüsusi qaydalara əməl edir. Bəzən tibbi maskadan düzgün istifadə etməyənlərə rast gəldikdə, onlara tərəfimizdən xəbərdarlıq olunur.

*Ardı 3-cü səhifədə.*

# Səbirli, dözümlü və sayıqdırlar

## Polis baş serjantı Şahbaz Orucov: "Post-Patrul Xidmətinin əməkdaşları inamı və etimadı doğrultmağa çalışırlar"

*Əvvəli 2-ci səhifədə.*

Cinayət hadisəsi ilə, cinayətkarla ən çox bayır xidmətinin əməkdaşları qarşılaşır. PPXB-nin polis nəfəri, polis serjantı Vüqar Əliyev indiyədək müxtəlif cinayət hadisələrinin üstünün açılmasında, xüsusən, narkotik vasitələrin qanunsuz dövriyyəsilə məşğul olan və axtarışda olan şübhəlilərin yaxalanıb istintaqa cəlb olunmasında dəfələrlə yaxından iştirak edib. Deyir ki, gecə növbəsində xidmət edir və kriminala meyilli şəxslər də, əsasən, axşamlar aktivləşir. Necə deyərlər, gecə düşür və şər qarışır. Ancaq cinayətkar varsa, onunla mübarizə aparan, şərin qarşısında dayanan, sabitliyi və əmin-amanlığı müdafiə edən daha hazırlıqlı, daha güclü polis də var.



Polis serjantı Vüqar Əliyevin sözləri də təsdiq edir ki, polis peşəsi gecə-gündüz demədən, fiziki və psixoloji gərginlik şəraitində işləməyi tələb edir. Elə buna görə də çoxları üçün bu peşə çətin hesab olunur. Ancaq işin çətinliyi bizim peşəyə zəriflik qatan xanım əməkdaşlarımız üçün heç zaman çəkindirici faktor olmayıb. Biz bunu Sabunçu RPİ-də olarkən də müşahidə etdik. Polis idarəsində operator, polis serjantı Cəmilə Yunisova kişi həmkarları ilə çiyin-çiyinə cinayətkarlığa qarşı mübarizə aparmaqdan qürur duyduğunu deyir. Onun sözlərinə görə, DİN rəhbərliyi tərəfindən xanım əməkdaşların xidməti üçün bütün şərait yaradılıb. Hər nə qədər daxili xidmətdə çalışsa da, lazım gələndə bayır xidmətinə də cəlb olunur və indiyədək müxtəlif kütləvi tədbirlərin təhlükəsizliyinin təmin edilməsində də iştirak edib.



# Məharətini göstər, məharət dərəcəni al

**Daxili işlər orqanları əməkdaşlarına məharət dərəcələrinin verilməsi üçün Əlahiddə Çevik Polis Alayında məharət imtahanları keçirilir. Pandemiya ilə əlaqədar olaraq xüsusi karantin qaydalarının tələbləri gözlənilməklə keçirilən imtahanlarda əməkdaşların xidməti, döyüş və fiziki hazırlıq səviyyələrinin yekun qiymətləndirilməsindən sonra məharət dərəcələri veriləcək.**



**DİN Baş Kadrlar İdarəsinin şöbə rəisi, polis polkovniki Əziz İsaxanov** bununla əlaqədar "Polis"ə bildirdi ki, daxili işlər orqanlarında qurulan peşə hazırlığı sisteminə əsasən əməkdaşlar qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı ilboyu onların hazırlığı davamlı olaraq yoxlanılır. Hər ilin yekununda əməkdaşların peşə hazırlığını müəyyən etmək üçün xidməti, döyüş və fiziki hazırlıq səviyyələri ayrıca qiymətləndirilir. Bu qiymətləndirmənin yekununda yaxşı və əla qiymət alanlar məharət dərəcələrinə təqdim olunurlar. Peşəkarlıq səviyyəsinə görə ikinci, birinci və usta məharət dərəcələri müəyyən olunub ki, bu dərəcələr həm peşəkar əməkdaşları fərqləndirir, həm də dərəcəyə görə əmək haqqına edilən əlavələr onlara daim öz üzərlərində işləmələrinə, bilik və bacarıqlarını artırmalarına stimul yaradır.



Hər məharət dərəcəsinə görə daxili işlər orqanlarında xidmətdə müvafiq müddət və tələblərin müəyyən olunduğunu deyən şöbə rəisinin sözlərinə görə, keçirilən imtahanlarda ilk olaraq əməkdaşların xidməti hazırlığı test üsulu ilə yoxlanılır. Tərtib olunan 40 sualdan 20-si ümumi biliklərin öyrənilməsinə xidmət edir, qalanı isə hər xidmət sahəsinin özünə aid suallardır. Əməkdaşın nəticələri avtomatik olaraq kompüterdə qiymətləndirilir, bununla da prosesin tam şəffaf, obyektiv keçirilməsi təmin olunur.



Test mərhələsini uğurla keçənlərin növbəti mərhələdə fiziki hazırlıq səviyyəsi yoxlanılır. Burada da əməkdaşlar üç istiqamət üzrə - güc keyfiyyətini yoxlamaq üçün turnikdə dartınma, çəldlik keyfiyyətini yoxlamaq üçün 100 metrə qaçış, dözümlüyü yoxlamaq üçün isə 1000 metrə məsafəyə qaçış normativlərini yerinə yetirirlər. Həmçinin, əlbəyaxa döyüş növləri üzrə imtahan verirlər.

Hazırkı pandemiya şəraiti əməkdaşların fiziki və xidməti döyüş hazırlığı təlimlərinə təsir etsə də, şöbə rəisi deyir ki, bəzən təlimlər fərdi qaydada davam etdirilib, idman təlimləri də açıq hava şəraitində, karantin qaydalarını gözləməklə keçirilib. Məharət dərəcələri üçün keçirilən istər test, istərsə də fiziki hazırlıq imtahanları pandemiyaya görə müəyyən olunan qaydalara tam əməl olunmaqla təşkil edilib.

Beləliklə, əməkdaşlarımız yaradılmış şəraitdən istifadə edib, öz məharətlərini göstərməklə məharət dərəcələrini ala bilərlər.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Koronavirus xəstələri saxlanılıb

## Maarifləndirmə və mübarizə tədbirləri davam etdirilir

**COVID-19 infeksiyasının ölkə ərazisində yayılmasının qarşısının alınması məqsədilə elan edilən karantin rejimi qaydaları çərçivəsində nəzarət-profilaktiki yoxlamalar davam etdirilir.**

Bu məqsədlə paytaxtımızda və bölgələrdə polis əməkdaşlarından təşkil edilən mobil qruplar vasitəsi ilə sanitar-karantin qaydalarına əməl edilməsi daim nəzarətdə saxlanılır.



Reydlər zamanı qapalı yerlərdə, ictimai nəqliyyatda, iaşə obyektlərində profilaktik söhbətlər aparılaraq sanitar-epidemioloji qaydalara əməl etməyin, sosial məsafənin təmin edilməsinin, eləcə də tibbi maskadan istifadənin zəruriliyi barədə məlumatlar verilir.



Buna baxmayaraq bəzi vətəndaşlar bu virusun ağır fəsadlara gətirib çıxaracağının mahiyyətinə varmır, qaydalara riayət etməyə məsuliyyətlə yanaşmırlar. Narahatçılıq doğuran əsas səbəblərdən biri "COVID-19" infeksiyasına yoluxmuş şəxslərin yaşayış yerini tərk etməsi barədə məlumat daxil olmasıdır. Təəssüflər olsun ki, belə xəstələrə ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, karantin qaydalarını pozaraq yaşayış yerlərini tərk edirlər. Son günlər əsasən, Bakı şəhəri də daxil olmaqla İmişli, Şabran, Bərdə, Ağdaş və Balakən rayonlarında belə hallar qeydə alınıb.

Belə ki, aprelin 2-də polis əməkdaşları tərəfindən respublika ərazisində 18, 3-ü və 4-də 12, 5-də isə 15 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. Polis əməkdaşları onlarla izahedici söhbətlər aparıb, tibbi prosedurları gözləməklə yaşadıqları evə qaytarıb, bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıblar.

Yeri gəlmişkən, Gədəbəy Rayon Polis Şöbəsinin əməkdaşları koronavirus testinin nəticəsi pozitiv çıxan, ev şəraitində müalicə alan rayon sakinlərini ziyarət edib. Xüsusi geyim geyinən və müəyyən edilmiş tibbi qaydalara riayət edən polis əməkdaşları ziyarət zamanı vətəndaşlarla profilaktiki söhbətlər aparıb, onlara sağalana qədər yaşayış yerlərində qalmalarının həm özləri, həm də başqalarının yoluxmaması üçün zəruri olduğu bildirilib. Hər hansı bir sosial və digər məsələlər ilə bağlı narahatlıqları olduğu təqdirdə RPŞ-yə müraciət edə biləcəkləri vurğulanıb.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# "Ağ ölüm" satanlar tutulub

## Külli miqdarda narkotik vasitə dövriyyədən çıxarılıb

Daxili İşlər Nazirliyinin əməkdaşları narkotik vasitələrin ölkə ərazisində qanunsuz dövriyyəsinin qarşının alınması istiqamətində mübarizə tədbirlərini davam etdirirlər.






Belə ki, Nazirliyin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən əldə edilən əməliyyat məlumatı əsasında həyata keçirilən növbəti uğurlu tədbir nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən vətəndaş Zamin Əliyev Abşeron rayonu ərazisində saxlanılıb. Onun üzərinə baxış zamanı 46 qram heroin, 27 qram psixotrop maddə olan metamfetamin aşkar olunaraq götürülüb. Əməliyyat tədbirlərinin davamı olaraq Zamin Əliyevin yaşadığı evdən əlavə 8 kiloqram heroin, 2 kiloqram 440 qram metamfetamin, 2 kiloqram 200 qram marixuana, 2 kiloqram 603 qram tiryək və 2300 ədəd psixotrop tərkibli "Metadon" həbi aşkar olunaraq götürülüb. Saxlanılan şəxs izahatında külli miqdarda narkotik vasitəni xarici ölkələrdən birinin vətəndaşından satmaq məqsədi ilə əldə etdiyini bildirib.

Baş İdarə əməkdaşları tərəfindən həyata keçirilən daha bir əməliyyat zamanı isə əvvəllər məhkum olunmuş Orxan Mürsəlov saxlanılıb. Onun üzərinə baxış zamanı 10 qram, Xəzər rayonunda yaşadığı mənzildən isə əlavə 2 kiloqram 160 qram heroin, 215 qram marixuana, 61 qram tiryək, 358 qram metamfetamin, 120 ədəd "Metadon M40" həbi və 2 ədəd elektron tərəzi aşkar edilib.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirilən daha bir əməliyyat tədbiri zamanı isə vətəndaş Nuranə Babayeva saxlanılaraq Baş İdarəyə gətirilib. Onun üzərinə baxış zamanı 5 qram, Sabunçu rayonunda yaşadığı evindən isə külli miqdarda – 3 kiloqram 470 qram heroin, 500 ədəd "Metadon" həbi və narkotik vasitələrin satışı zamanı istifadə etdiyi elektron tərəzi aşkar edilib.

Baş İdarənin əməkdaşlarının həyata keçirdikləri daha bir əməliyyat zamanı vətəndaş Gülnarə İsmayılova narkotik vasitələrin satışında şübhəli bilindiyi üçün saxlanılıb. Onun üzərindən 107 qram, Nərimanov rayonunda yaşadığı mənzildən isə 470 qram heroin, 1 ədəd elektron tərəzi və narkotik vasitələrin satışından əldə olunan 2 min manat pul aşkar edilib.

Baş İdarənin əməkdaşlarının həyata keçirdikləri sonuncu əməliyyat zamanı əvvəllər məhkum olunmuş Vüsal Tağıyev saxlanılıb. Onun üzərindən və Sabunçu rayonunda yaşadığı evdən ümumilikdə 40 qram heroin və metamfetamin, eləcə də narkotik vasitələrin satışında istifadə etdiyi 1 ədəd elektron tərəzi, həmçinin 1 ədəd "Makarov" markalı tapança aşkar edilib.

Beləliklə, Baş İdarə əməkdaşları tərəfindən keçirilən sonuncu əməliyyatlar nəticəsində qanunsuz yollarla ölkə ərazisinə gətirilən yüksək təsiredici xassəyə malik ümumi çəkisi 23 kiloqrama yaxın narkotik vasitə və psixotrop maddə, eləcə də 2920 ədəd "Metadon" həbinin yayılmasının qarşısı alınıb.

Qeyd edilən faktlarla bağlı saxlanılan şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb və onlar tutularaq istintaqa cəlb olunublar. Zəruri istintaq tədbirləri davam etdirilir.

*Anar Qafarov,*
*polis kapitanı*

# “DANIŞAN” İŞARƏLƏR...

## Bunları polis bilir, bəs vətəndaşlar?

Cinayətkarlıqla qətiyyətli mübarizə, asayişin keşiyində, dövlət və vətəndaş əmlakının etibarlı mühafizəsi, ayıq-sayıq xidmət. Bir cümlədə polisin fəaliyyətinin ümumi mənzərəsi gözümüz önündə canlandı.

Bütün bunlarla yanaşı, yollarda hərəkətin təhlükəsizliyinin təmini də polisin əsas fəaliyyət istiqamətlərindəndir. Hərəkət tənzimlənərkən Yol Patrul Xidməti inspektorları tərəfindən göstərilən şərti işarələrin hansı mənanı ifadə etməsi ilə bağlı sorğu keçirdik. İştirak edənlərin müəyyən hissəsi suallarımızı cavablandırmaqda çətinlik çəkdi. Bunları nəzərə alıb, onlara kömək üçün həmkarlarımıza müraciət etdik.

Başlayaq **“Diqqət. Hərəkət dayandırılsın!”**



işarəsindən. Bu işarə hərəkəti qadağan edir, lakin işarə verilərkən yolayrıcında olan sürücülərə və piyadalara hərəkətlərini davam etməyə icazə verir.



**“Müəyyən istiqamət üzrə hərəkət”**: işarəsi nizamlayıcının ön və arxa tərəfindən gələn nəqliyyat vasitəsinin, piyadaların hərəkətini qadağan edir, sol və sağ tərəfindən gələn tramvayların düzünə, relssiz nəqliyyat vasitəsinin düzünə və sağa hərəkət etməsinə, ön və arxa tərəfindən isə piyadalara yolun hərəkət hissəsini keçməyə icazə verir.



**“Sola dönmə”** işarəsi: nizamlayıcının sol tərəfindən gələn tramvayların sola dönməsinə, relssiz nəqliyyat vasitələrinə bütün istiqamətlərdə hərəkət etməyə, ön tərəfindən gələn nəqliyyat vasitələrinə sağa dönməyə, arxa tərəfindən piyadalara hərəkət hissəsini keçməyə icazə verir, sağ və arxa tərəfdən gələn nəqliyyat vasitəsinin hərəkətini isə qadağan edir .

***Konkret nəqliyyat vasitəsinin sürücüsünə və piyadaya aid olan işarələr:***



**“Sürəti artırın”**: işarəsi nizamlayıcı əli ilə üfüqi vəziyyətdə (saat əqrəbi istiqamətində) dairəvi hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitəsinin sürətini artırmaq, piyadalardan isə yolu keçməsini tezləşdirməyi tələb edir.

**“Sürəti azaldın”**: işarəsi nizamlayıcı əl ilə yuxarı-aşağı hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitəsinin sürətini azaldılmasını tələb edir.

**“Dayanın”**: işarəsi nizamlayıcı tərəfindən hər hansı nəqliyyat vasitəsinə tərəf yönəldilmişdirsə, sürücüdən nəqliyyat vasitəsini yolun hərəkət hissəsinin kənarında dayandırmasını tələb edir.

İşarələri verərkən nizamlayıcı fitdən də istifadə edə bilər. Yol Patrul Xidməti əməkdaşı elə yerdə dayanmalı və elə təchiz edilməlidir ki, yol hərəkəti iştirakçıları onun tərəfindən verilən işarələri sutkanın işıqlı və qaranlıq vaxtı seçə bilsinlər. Bu məqsədlə sutkanın qaranlıq vaxtında nizamlayıcı işıq düşən yerdə dayanmalıdır və ya istifadə edilən jezl işıqsaçan olmalıdır.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# Tarix silinmir, yazılır

“Gülüstan” və “Türkmənçay” müqavilələrdən sonra azərbaycanlılar öz əzəli yurdlarından etnik təmizləməyə və deportasiyaya məruz qalıblar. Ötən illər ərzində İrandan və Türkiyədən ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi.

1918-ci il mayın 28-də müstəqilliyini bəyan etdikdən sonra Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üzləşdi.

Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrildi. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk, 91 kürd və 81 erməni kəndi var idi. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon müsəlman həlak oldu, 115 müsəlman kəndi yer üzündən silindi, 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirildi.

Zəngəzur 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla Ermənistana verildi.

Tarixi proseslərin davamı olaraq 1988-ci ildən başlayaraq Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan soydaşlarımız məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi.

Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur yenidən doğma nəfəsimizlə isinəcək. Tarixi zəfərimizdən sonra bu qədim yurd yerimiz Ali Baş Komandanımızın qeyd etdiyi kimi, dövlətimizin iqtisadi və siyasi gücünün artmasında mühüm rol oynayacaq.

**Baş Narkotiklərlə Mübarizə İdarəsi və Yasamal RPİ 26-cı PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında birgə keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini Z.Dadaşov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 2 kiloqram 540 qram heroin və metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini M.Ağayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqram 320 qram heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nəqliyyatda Baş Polis İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında Xudat dəmir yolu stansiyası ərazisində keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Qasımovun gizlətdiyi “AKSU” markalı avtomat, patron darağı və 20 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Abşeron RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Xırdalan şəhər sakini, əvvəllər məhkum olunmuş A.Məmmədovun yaşadığı evə baxış zamanı 2 kiloqram 146 qrama yaxın heroin aşkarlanıb götürülmüşdür.

◆◆◆

**Nəsimi RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Xaçmaz rayon sakini, əvvəllər məhkum olunmuş N.İsgəndərovun rayon ərazisində kirayədə yaşadığı evə baxış zamanı 3 kiloqram 361 qrama yaxın heroin və 14 kiloqram 759 qram marixuana aşkarlanıb götürülmüşdür.

◆◆◆

**Şirvan ŞPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Biləsuvar rayon sakini Ə.Tahirlidən 1 kiloqram 230 qram heroin və 1 kiloqram 450 qram tiryək götürülmüşdür.




◆◆◆

**Qusar RPŞ-yə** şəhər ərazisindəki mağazaların birində alış-veriş edən şəxsin 1 ədəd 100 dollarlıq saxta əskinas verməsi barədə müraciət daxil olmuşdur.

Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində şübhəlilər - Gəncə şəhər sakinləri Q.Mahmudova və əvvəllər məhkum olunmuş S.Əliyev, əvvəllər məhkum olunmuşlar - Bakı şəhər sakinləri E.Həsənov, O.Məmmədov və Sumqayıt şəhər sakini G.Eynullayeva saxlanılmışlar. Onlardan ümumilikdə 70 ədəd 100 dollarlıq saxta əskinas götürülmüşdür.

◆◆◆

**Sabunçu RPİ 42-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş F.Hacıyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 2 kiloqram 120 qram marixuana və heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nizami (Gəncə) RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş X.Talıbov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 51 qrama yaxın heroin, nömrəsi silinmiş, lüləsi və qundağı kəsilmiş “İJ” markalı ov tüfəngi götürülmüşdür.

◆◆◆

**Kəpəz RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş S.Quluzadə saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan tiryək aşkar edilmişdir.

Onun yaşadığı evə baxış zamanı əlavə olaraq 39 qrama yaxın tiryək, müvafiq sənədləri olmayan lüləsi kəsilmiş, nömrəsi silinmiş ov tüfəngi və 2 ədəd patron götürülmüşdür.




Mart ayı ərzində Türkiyə ərazisində 86 terrorçu zərərsizləşdirilib. Bu barədə Türkiyənin daxili işlər nazirinin müavini İsmail Çataklı bildirib.

Nazir müavini deyib ki, ötən ay terrorçulara kömək göstərməkdə şübhəli bilinən 3059 nəfər saxlanılıb. Onlardan 361-i həbs edilib.

Türkiyədə ötən ay partlayıcı maddə birləşdirilmiş dronla törədilməsi planlaşdırılan 16 terror aktının qarşısı alınıb. Bundan əlavə, ölkə üzrə narkotik maddələrin dövriyyəsinin qarşısının alınması məqsədilə martın 29-dan aprelin 5-dək keçirilən əməliyyatlar zamanı 5224 nəfər saxlanılıb.

❖❖❖

Çinin Honkonq xüsusi inzibati ərazisində polis narkotik maddə qaçaqmalçılarından rekord miqdarda - 700 kiloqram kokain müsadirə edib. Həmin narkotik maddənin dəyəri təxminən 120 milyon ABŞ dollarıdır.

Polisin məsələyə dair açıqlamasında deyilir ki, COVID-19 pandemiyası dövründə səyahətlərin məhdudlaşması narkotik maddələrin ayrı-ayrı şəxslər vasitəsilə dövriyyəsinə çətinlik yaradıb. Qaçaqmalçılar riskə gedərək, narkotik maddələri iri həcmdə müxtəlif növ yükdaşımaları yolu ilə göndərməyə məcbur olublar. Bildirilir ki, polis əməkdaşları Fotan sənaye zonasında yük arabası sürən şəxsi saxlayıblar və karton qutularda 150 bağlama kokain aşkarlanıb. Əməliyyatın davamında həmin sənaye zonasında yerləşən mənzillərin birində əlavə 492 bağlama kokain müsadirə edilib. Əməliyyat zamanı 2 nəfər saxlanılıb.

Güman olunur ki, narkotik maddə Cənubi Amerikadan gəmilərlə Honkonqa gətirilib. Gəmi şəhərə çatmamış narkotik maddə sukeçirməyən çantalarda kiçik katerlərə yüklənərək, qeyri-qanuni yolla daşınıb.

❖❖❖

İngiltərədə cinayətləri spirtli içki qəbulu ilə əlaqədar olan məhkumları sınaq müddəti (probasiya) ərzində qanlarında spirtin səviyyəsini ölçən elektron bilərziklər taxmağa məcbur edəcəklər. Bu barədə Böyük Britaniya hökuməti məlumat yayıb.

Birləşmiş Krallığın qanunvericiliyi məhkumun cəzaçəkmə müəssisələrindən azad edildikdən sonra dörd ay ərzində spirtli içki qəbuluna qadağa qoyulması imkanlarını nəzərdə tutur. Ötən ilin oktyabr ayında qanda spirtin səviyyəsini ölçən bilərziklərin taxılması ilə bağlı təşəbbüs Uelsdə tətbiq edilib və bu sistem yüzlərlə cinayətkar üzərində sınaqdan keçirilib.

Spirtli içki qəbuluna qoyulan qadağanı pozanları cərimə və məhkəmə hökmləri gözləyir. Britaniya polisinin fikrincə, bu sistem gələcəkdə cinayətlərin sayının azaldılmasına kömək edəcək.

*C.Natiq*

## Mart ayının 31-dən aprelin 6-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 212 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 91 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 156, o cümlədən borclu şəxs qismində axtarışda olan 112 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 6 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 6 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 134 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik